**Respublika.** - 2024.- 23 noyabr. - № 258. - S. 1,4.

# COP29: Qlobal iqlim problemlərinin həllində Azərbaycan nümunəsi

**Mustafa Kamal**

**"Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır. Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində deyib.**

Dövlət başçısı bildirib ki, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük. Mərasimdə Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkürünü bildirən BMT-nin Baş katibi Antonio Quterreş vurğuladı ki, prezidentlər bizim əməkdaşlığa etibar edə bilərlər. Həqiqətən də Sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza atacağıq.

Noyabrın 11-dən dünyanın diqqəti paytaxt Bakıya yönəlib. Planetin bütün nöqtələrindən on minlərlə insan bəşəriyyət üçün çox ciddi problemə çevrilmiş iqlim böhranını müzakirə etmək, çıxış yollarını tapmaq üçün Azərbaycanda toplaşıb. Bu mötəbər tədbirdə 196 ölkədən 75 min iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir iştirak edib. Bu, Azərbaycanın dünyada artan nüfuzunu, etibarlı tərəfdaş kimi tanındığını və qəbul edildiyini göstərir. Onların arasında Türkiyə, Gürcüstan, Böyük Britaniya, İtaliya, İspaniya, Belçika, Danimarka, Finlandiya, Polşa, Yunanıstan, Çexiya, Xorvatiya, Serbiya və digər ölkələrin rəhbərləri, Avropa İttifaqı Şurasının prezidenti olub.

Azərbaycan COP29-a uğurla ev sahibliyi edir, yüksək təşkilatçılıq və təhlükəsizlik tam təmin olunmaqla, effektiv infrastruktur yaratmaqla konfrans keçirilir, eyni zamanda qlobal iqlim böhranının aradan qaldırılmasına, həll yollarının tapılmasına öz dəstəyini verir, təşəbbüslər, təkliflər irəli sürür. Ölkədə bu hazırlıqlar üçün bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsinə əzmlə səy göstərib. Rəsmi Bakının bu rolu həm dünya liderləri, həm də ölkəmizdə olan konfrans iştirakçıları tərəfindən yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev COP29-un Liderlər, eləcə də inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxışlarında hazırkı dövrün çağırışlarını yerinə yetirmək üçün əsas vəzifələrin nədən ibarət olduğunu açıqladı. Bu gün Azərbaycanın hər bir sahədə zəngin təcrübəyə malik olması təqdir edilir. Ölkəmiz COP29-a tamamilə fərqli ovqatda ev sahibliyi edir. Tarixi Zəfəri, suverenliyini tam bərpa etməsi ilə qürurlanan qalib Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımları atıb.

Tədbir iştirakçılarının hər biri Azərbaycanın belə mötəbər tədbirə ev sahibliyini, onun yüksək səviyyədə təşkilini alqışlayır, Prezident İlham Əliyevin liderliyi, səyləri nəticəsində uğurlu COP-a imza atıldığını bildirirlər. Hər bir mühüm addım əvvəlki addımların məntiqi davamıdır.

Azərbaycan regionda "yaşıl enerji"nin inkişafına ən çox investisiya qoyan ölkələrdən biridir. Son illər bu sahəyə yönəlmiş sərmayələrin həcmi 1 milyard ABŞ dollarından artıqdır. COP29 bir sıra istiqamətlərdə, eyni zamanda ölkənin "yaşıl enerji" sahəsində həyata keçirdiyi fəaliyyətlərin təqdimatı baxımından da çox vacibdir. Azərbaycan "yaşıl enerji" sahəsində bir sıra aparıcı şirkətlərlə, o cümlədən beynəlxalq qurumlarla əməkdaşlıq edir və digər tərəfdən ölkəmizin yaşıl enerjinin istehlakda payı ilə bağlı bəlli hədəfləri var. Bu hədəflərin reallaşması istiqamətində intensiv addımlar atılır. Eyni zamanda Azərbaycan, həm də Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya "yaşıl enerji"sini ixrac etmək niyyətindədir. Bu da ondan xəbər verir ki, 2026-cı ildən sonra Azərbaycan Avropa İttifaqının "yaşıl enerji"yə olan tələbinin ödənməsində xüsusi paya malik olacaq. Bu istiqamətdə də çox sürətli işlər həyata keçirilir. Belə tədbirlər bir tərəfdən turizm-xidmət sektorunun dəstləklənməsi və inkişafına xidmət edir, digər tərəfdən isə ölkənin iqtisadi potensialı ilə daha yaxından tanış olmağa fürsət yaradır.

Avropa ilə Asiya arasındakı strateji kəsişmə nöqtəsində yerləşən Azərbaycanın müxtəlif diplomatik strategiyalarla yanaşı, öz təbii enerji resurslarından və regional və qlobal infrastruktur layihələrinə etdiyi

investisiyalardan istifadə edərək dünya miqyasında siyasi və iqtisadi nüfuzunu artırması aydın görünür. Zəngin neft və qaz ehtiyatları üzərində qurulan iqtisadiyyata sahib Azərbaycanın Avropa və Asiya ölkələri üçün strateji enerji təchizatçısı kimi rolu artır.

Təbii enerji resursları üzərində qurulan düzgün ixrac siyasəti, Azərbaycanın geosiyasi mövqeyini gücləndirməklə yanaşı, Avropa İttifaqı və Çin də daxil olmaqla, dünyanın nəhəng iqtisadiyyatları ilə qarşılıqlı əlaqələri daha da genişləndirir. Avropaya neft ixracı üçün mühüm əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan (BTC) və Xəzər regionunu Avropa bazarlarına birləşdirən Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) kimi irimiqyaslı layihələr vasitəsilə Azərbaycan mühüm tranzit enerji qovşağına çevrilmiş ölkələr siyahısındadır. Siyasi konflikt və hərbi münaqişə yaşadığı Rusiyadan enerji asılılığını minimuma endirmək üçün alternativ enerji mənbələri axtarışında olan Avropa Birliyi ilə qurulan çoxşaxəli enerji tərəfdaşlığı əsasında Azərbaycandan Avropaya təbii qaz nəql edən Cənub Qaz Dəhlizi, ölkənin enerji ixracı sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biridir və onun xarici iqtisadi siyasət strategiyasının əsas elementləridir. Bununla yanaşı, öz iqtisadi inkişafını qorumaq və artan templə davam etdirmək üçün Azərbaycan dövləti, ölkə iqtisadiyyatını neft və qazdan kənarda şaxələndirmək üçün müxtəlif infrastruktur layihələrinə ciddi sərmayələr qoyur.

Çini Azərbaycandan keçməklə Avropa ilə birləşdirən Orta Dəhliz təşəbbüsü də bu diversifikasiya strategiyasının bir hissəsidir. Bu dəhliz Azərbaycanı müasir İpək Yolunun mərkəzi qovşağına çevirir və beynəlxalq sərmayələri və tərəfdaşlıqları cəlb edərək ölkənin Avrasiya ilə iqtisadi əlaqələrini gücləndirmə missiyası daşıyır. Bundan əlavə, bərpaolunan enerji layihələri, o cümlədən günəş və külək enerjisinə irimiqyaslı investisiyalar indi Azərbaycanın iqtisadi siyasətinin tərkib hissəsidir. Azərbaycan ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli, planlı və elmi istifadə məqsədilə bir sıra layihələr reallaşdırmağa başlayıb. 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulub. Bununla bağlı 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Bunlar Birləşmiş Ərəb Əmirliklərnin "Masdar" şirkəti, Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti və Birləşmiş Krallığın bp şirkəti ilə həyata keçirilən layihələrdir.

Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması və çoxtərəfli şaxələndirilməsilə bağlı qətiyyətli islahatlar fonunda COP29-un ev sahibi kimi Azərbaycan bir çox neft ölkəsi üçün nümunə ola bilər. Ölkəmiz Avropaya "yaşıl enerji"ni ixrac etmək üçün Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi layihəsində də fəal iştirakçıdır. Avropaya ilkin mərhələdə dörd QVt "yaşıl enerji" tədarük edəcək "Xəzər-Qara dəniz-Avropa", Naxçıvandan bir QVt bərpaolunan enerjinin ixracı ilə yanaşı, Xəzərdən və Mərkəzi Asiyadan da elektrik enerjisinin Türkiyə və Avropaya ötürülməsi perspektivinə malik "Azərbaycan-Türkiyə-Avropa" "yaşıl enerji" dəhlizləri də vacib layihələrdir. COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş imzalanıb.

Müxtəlif qurumlar arasında əlaqələri inkişaf etdirməklə Azərbaycan özünü Şərqlə Qərb arasında körpü qura bilən neytral tərəfdaş kimi göstərmişdir. Bu baxımdan, COP29 kimi mühüm beynəlxalq tədbirin Bakıda keçirilməsi Azərbaycanın Qərb və Şərq arasında diplomatik körpü rolunu gücləndirməklə yanaşı, ən aktual ekoloji problemlərinin həllində beynəlxalq əməkdaşlığı inkişaf etdirməyə qadir bir ölkə kimi iqlim diplomatiyasında liderlər sırasında yer almasına imkan yaradır.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi, eyni zamanda ona BMT-nin İqlim Konfransına ev sahibliyi edən ilk postsovet ölkəsi olmaqla yanaşı, mədən yanacaqlarından bərpaolunan enerjiyə qlobal keçidin başladığı bir dövrdə, "yaşıl enerji" istehsalı və "yaşıl texnoloji" innovasiyaların təşviqində maraqlı olduğunu göstərir. COP29 "yaşıl iqtisadiyyat"a keçid üçün inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş dövlətlərdən maliyyə dəstəyi alması baxımından çox əhəmiyyətli bir platforma rolunu daşıyır. COP29-un müsbət nəticələrindən biri olaraq yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanı qeyd etmək olar. Belə ki, Azərbaycanın irəli sürdüyü yeni təşəbbüslər tərəfdaş ölkələr tərəfindən qəbul olunmuş, hətta illərlə həlli uzanan bir sıra məsələlərin müzakirəsi müsbət nəticələnmişdir.

Artıq bir mühüm məqamı da qeyd edək ki, Azərbaycanın COP29 Sədrliyi Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanat yayıb. Bəyanatda COP29 Sədrliyinin il ərzində inkişaf etməkdə olan Tərəf ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq ədalətli və ambisiyalı yeni iqlim maliyyəsi məqsədini reallaşdırmağa çalışdığı vurğulanıb.

Bəyanatda qeyd olunub ki, biz səhər erkən saatlarına qədər geniş və əhatəli məsləhətləşmələr apardıq. Biz bütün qruplara dünən səhər yaydığımız mətn paketi ilə bağlı münasibət bildirmək üçün şərait yaratdıq və konstruktiv iştiraka görə onlara minnətdarlığımızı bildiririk. COP29 Sədrliyi Tərəfləri bu mətni diqqətlə təhlil etməyə, qalan bir neçə variant üzərində konsensusa gəlməyə çağırır. Bildirilib ki, Tərəflərin göstəricilərinin ilk təzahürü olaraq Yeni Kollektiv Kəmiyyət Məqsədi ilə bağlı qərarda Tərəflərin hamısına

2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən iqlimlə bağlı fəaliyyət üçün inkişaf etməkdə olan ölkələrə maliyyələşdirməni ildə ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün birlikdə işləməyə dəvət yer alıb. Bu qərar özündə, eyni zamanda, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək 250 milyard ABŞ dollarına çatdırılması məqsədini ehtiva edir.

Beləliklə, COP29 kimi nəhəng tədbir bütün dünyaya öz sözünü deyir.